# Azərbaycanın yaratdığı reallıqlar qlobal müstəvidə qəbul olunur

"Aprelin 28-də Prezident İlham Əliyevə zəng edən ABŞ Dövlət katibi Entoni Blinkenin sözlərindən aydın oldu ki, Amerika Azərbaycanı Cənubi Qafqazda özünə tərəfdaş hesab edir. ABŞ Azərbaycan-Ermənistan sərhədində delimitasiya və demarkasiya istiqamətində atılan addımları da yüksək qiymətləndirir. Bu, bir daha sübuta yetirir ki, ABŞ Azərbaycanın yaratdığı reallıqları qəbul edir".



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat qeyd edib ki, ABŞ bir çox hallarda Ermənistanın tərəfini tutsa da, görünür, Azərbaycanın yenilməz gücü və qətiyyəti qarşısında bir söz deyə bilmir. Bu, Azərbaycanın öz haqq yolunda əmin addımlarla irəlilədiyini təsdiq edir. ABŞ-nin ölkəmizi bu cür diqqətdə saxlaması həm də Prezident İlham Əliyevin dünyada artan nüfuzu ilə birbaşa bağlıdır.

Arzu Nağıyevin sözlərinə görə, ABŞ Dövlət Departamentinin məlumatında qeyd edilib ki, Entoni Blinken İlham Əliyevə zəng etməmişdən öncə Ermənistanın baş naziri Nikol Paşinyanla da danışıb, Bakı və İrəvan arasında olan razılığı təqdirəlayiq adlandırıb. Bundan başqa, Azərbaycanla Ermənistan arasında gələcəkdə imzalanacaq sülh müqaviləsinin Amerika Birləşmiş Ştatları tərəfindən yüksək qiymətləndirildiyi ifadə edilib. Eyni zamanda Blinken vasitəçilik missiyasını həyata keçirmək üçün təkliflər səsləndirib. Telefon danışığı zamanı Azərbaycanla ABŞ arasında ekologiya, energetika, nəqliyyat və kommunikasiyaların birgə istifadəsi ilə bağlı çox mühüm əlaqələrin olduğu da vurğulanıb. ABŞ rəsmisi həmçinin ölkəmizə COP29-a evsahibliyi ilə bağlı uğurlar arzulayıb.

"Prezident İlham Əliyev də öz növbəsində Ermənistan və Azərbaycan arasındakı demarkasiya işlərini sülh müqaviləsinin imzalanması istiqamətində atılan müsbət addım kimi dəyərləndirib və hər iki dövlətin delimitasiya üzrə komissiyalarının işini müsbət qiymətləndirib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan tərəfi birmənalı şəkildə sülhün bərqərar olması üçün hər cür addımlar atacaq", - deyə müsahibimiz əlavə edib.

Deputat vurğulayıb ki, baş verən hadisələrdən də aydın olur ki, Azərbaycan regional əməkdaşlığın ən effektiv modelini bütün dünyaya nümayiş etdirə biləcək gücdədir: "Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, region dövlətləri siyasi, iqtisadi, hərbi və digər prosesləri beynəlxalq hüquq normalarına uyğun olaraq öz müstəqil siyasətləri ilə yerinə yetirə bilsinlər. Bunların reallaşması üçün isə regiona kənar ölkələrin müdaxiləsi, terror və cinayət planlarının tətbiqi yolverilməzdir. Azərbaycanın söz sahibi olduğu regiona təhdidlə gəlmək mümkün deyil".

Arzu Nağıyev deyib ki, bu gün Azərbaycanın ard-arda qazanılmış uğurlarından, söz sahibliyindən, etibarlı tərəfdaş olmasından bəhs edərkən hər bir vətəndaşımız qürurlanır: "Azərbaycanın yaratdığı yeni reallıqların qlobal müstəvidə qəbul edilməsi hər keçən gün bir daha təsdiqini tapır. Bütün bu uğurların təməlində isə, əlbəttə ki, düşünülmüş siyasət dayanır. Bu, Azərbaycanı zirvələrə ucaldan Prezident İlham Əliyevin böyük əməyinin nəticəsidir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 2 may, № 89.- S.14.